| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | AZLL 333 Oxu strategiyası, 6 AKTS | |
| | **Departament** | Dillər və ədəbiyyatlar | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavriat | |
| | **Tədris semestri** | 2024/2025-ci tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | Fil.ü.f.d.Sevinc Qəmbərova | |
| | **E-mail:** | sevinj.gambarova@khazar.org | |
| | **Mühazirə otağı/Cədvəl** | | |
| | **Məsləhət saatları** | Tələbələrlə razılaşdırılmış vaxtda | |
| **Prerekvizitlər** | Yoxdur | | |
| **Tədrisdili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Hüseynoğlu S. İfadəli oxunun əsasları. Dərs vəsaiti. Bakı, 2019.<br>2. Hüseynoğlu S., Abdullazadə N. İfadəli oxu: laboratoriya məşğələləri. Dərs vəsaiti. Bakı, 2021.<br>3. Həsənli B., Abdullazadə N. İfadəli oxu. Bakı, 2015.<br>4. Yusifov F. İfadəli oxu. Dərs vəsaiti. Bakı, 2014.<br>5. Rəsulova S. Ədəbiyyat dərslərində ifadəli oxu. Bakı, 2012.<br>6. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Müəllim üçün vəsait. Bakı, 2009.<br>7. Ədəbiyyat müntəxəbatı. 5-11-ci siniflər üzrə ümumtəhsil məktəbləri üçün dərs vəsaitləri.<br>8. https://klv.az/ - ədəbiyyat və mədəniyyət saytı<br>9. https://kulis.az/ - ədəbiyyat və mədəniyyət portalı<br>10. **http://web2.anl.az:81/read/page.php?bibid=776885&pno=2**<br>11. **https://www.calameo.com/read/001509414e24e35954199**<br>12. **http://web2.anl.az:81/read/page.php?bibid=vtls000774128**<br>13. **http://web2.anl.az:81/read/page.php?bibid=vtls000776889**<br>14. **http://web2.anl.az:81/read/page.php?bibid=vtls000344982**<br>15. **http://web2.anl.az:81/read/page.php?bibid=vtls000067275**<br>**Semestr boyu oxunulacaq əsərlər:**<br>1. Cəlil Məmmədquluzadə "Anamın kitabı" pyesi.<br>2. Cəfər Cabbarlı "Oqtay Eloğlu" pyesi.<br>3. Mir Cəlal "Açıq kitab" romanı.<br>4. Bəxtiyar Vahabzadə "Şəhidlər" poeması.<br>5. Çingiz Aytmatov "Gün var əsrə bərabər" romanı. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Sokrat dialoqu (sual-cavab) | + | |
| | Rollu oyunlar | + | |
| **Qiymətləndirmə** | **Komponentlər** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | Aralıq imtahanı | | 30 |
| | Fəallıq | | 5 |
| | Yoxlama 1 | | 10 |
| | Yoxlama 2 | | 10 |
| | Davamiyyət | | 5 |
| | Final imtahanı | | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | Fənnin tədrisi məktəbdə ədəbiyyat fənn kurikulumunun tətbiqi ilə xüsusi əhəmiyyət kəsb etmişdir. Belə ki, bədii əsərin ifadəli oxusu ilə bağlı fənn kurikulumunda məzmun standartı əks etdirilmiş, şagirdlərdə ifadəli oxu bacarığının inkişaf etdirilməsi V sinifdən başlayaraq XI sinif də daxil olmaqla diqqət mərkəzində saxlanılmışdır. Bünövrəsi ibtidai | | |

| | |
|---|---|
| | siniflərdə qoyulan ifadəli oxu üzrə iş ədəbiyyat tədrisində daha da dərinləşdirilir və genişləndirilir. Fənnin tədrisi prosesində tələbələrə oxu sənətinin tarixi, ədəbiyyat təlimində oxunun əhəmiyyəti barədə zəruri məlumat verilir. İfadəli oxunun elmi-nəzəri əsasları aydınlaşdırılır; ilk növbədə isə bədii əsərin şifahi nitqdə necə ifadə edilməsinin mahiyyəti açıqlanır. |
| **Kursun məqsədləri** | "Oxu startegiyası" fənni bədii oxu sənətinin qanunlarına əsaslanmaqla oxunun mahiyyətini, tətbiqi yollarının öyrənilməsini həyata keçirir. Fənnin məqsədi tələbələrdə ifaçılıq bacarığı və vərdişlərinin formalaşdırmaqdır. Bunun həyata keçirilməsi isə oxunacaq əsərin qavranılması və təhlil edilərək dərindən mənimsənilməsi nəticəsində mümkündür. Bədii əsərin oxusuna hazırlıq ədəbiyyatşünaslıqda qazanılmış biliklərin dərinləşdirilməsini, zənginləşdirilməsini bir vəzifə kimi qarşıya qoyur. Vəzifələr:<br>-tələblərə oxu sənətinin əsaslarını mənimsətmək;<br>-tələbələrin bədii inkişafına nail olmaq;<br>-səslənən bədii sözə məhəbbət tərbiyə etmək;<br>-ifalara həqiqi meyarlarla qiymət vermək bacarığını formalaşdırmaq. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | Tədrisin nəticəsi olaraq tələbələr öyrənir:<br>-ifadəli oxunun təlim və tərbiyəvi əhəmiyyətini aydınlaşdırır, tətbiqi yollarını şərh edir;<br>-ifaçının düzgün və dəqiq nitqi üçün vacib olan şərtləri izah edir, qiymətləndirir;<br>-müəllif fikrinin dəqiq və aydın çatdırılması şərtlərini müəyyənləşdirir, emosional-obrazlı ifadəliliyin mahiyyətini dəyərləndirir;<br>-bədii nümunələrin oxusu üçün vacib olan mərhələləri fərqləndirir, praktik olaraq reallaşdırır;<br>-müxtəlif ədəbi növ və janrda olan əsərlərin oxu xüsusiyyətlərini izah edir, tətbiq etməyi bacarır. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | **Davamiyyət:** Semestr boyunca tələbənin dərsə davamiyyəti qeyd edilir. Üzürsüz buraxılan 2 (iki) dərs üçün 1 (bir) bal çıxılacaq.<br>**Fəallıq:** Tələbənin sual-cavab, müzakirələrdə fəal iştirakı, dərsə hazırlıq səviyyəsi, mövzularla əlaqəli verilən tapşırıqları yerinə yetirməsi bu qiymətləndirməyə daxildir.<br>**Yazı çalışması:** Təqdim olunan tapşırıqlar yerinə yetiriləcək.<br>**Oxu calışması/bədii qiraət:** Semestr ərzində tapşırılan bədii ədəbiyyat oxunulacaq.<br>**Yoxlamalar:** Açıq və qapalı suallar, tapşırıqlar<br>**Final imtahanı:** İmtahanlarda testlər, açıq suallar və tapşırıqlardan istifadə ediləcək.<br>**Qeyd:** Tələbə dərsin 25% iştirak etməzsə final imtahanına girmə haqqını itirir. |

**Cədvəl (dəyişdirilə bilər)**

| **Həftə** | **Tarix (planlaşdırılmış)** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|---|
| 1. | | Oxu strategiyasının elmi-metodiki əsasları. İfadəli oxu təlimi müəllimin peşə hazırlığı sisteminin mühüm hissəsi kimi. Oxunun xüsusiyyətləri, modelləri, oxuya verilən tələblər. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 2. | | Oxu sənətinin tarixi. Folklor nümunələri və dini mətnlərin oxunması. Oxu sənətinin başqa elmlərlə əlaqəsi. Bədii oxu sənəti və teatr sənəti: oxşar və fərqli cəhətləri. Oxucunun xüsusiyyətləri. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 3. | | Səs və nitq. Nitqin psixoloji və fizioloji | |

| | | | |
|---|---|---|---|
| | | məsələləri. Nitq aparatı. Nitq texnikasının komponentləri: tənəffüs, səs, diksiya və s. Orfoepiya normalarına əməl edilməsinin zəruriliyi. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 4. | | Nitqin məntiqi. “Məntiqi oxu” anlayışının mahiyyəti. Məntiqi oxunun əsas ifadəlilik məsələləri: məntiqi fasilə, məntiqi vurğu, məntiqi melodiya. Mətnin işarələnməsi. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 5. | | Oxu sənətinin əsasları. İntonasiya oxunun başlıca ifadəlilik vasitəsi kimi. Bədii oxu sənətinin nəzəri əsasının formalaşmasında K.S.Stanislavskinin sisteminin yeri. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 6. | | Ədəbi əsərlərin ifaçılıq təhlili. Əsərin ifadəli oxusunun reallaşdırılmasında ifaçılıq təhlili və onun komponentləri: mətnin məzmununun öyrənilməsi, ədəbiyyatşünaslıq zəminində təhlil və s. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 7. | | Nəsr əsərlərinin ifadəli oxusu. Nəsr əsərlərinin ifadəli oxusuna hazırlıq işləri. Əsərin məzmununun qavranılması, mövzu və ideyasının, bədii xüsusiyyətlərinin müəyyənləşdirilməsi. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 8. | | **Aralıq imtahanı.**<br>Təmsil və nağılların oxu xüsusiyyətləri. İfadəli oxuda janrın xüsusiyyətlərinin nəzərə alınması, alleqoriyalar, dialoqlar, əxlaqi nəticənin oxu xüsusiyyətləri. İfadəli oxuda danışıq tərzi. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 9. | | Lirik əsərlərin ifadəli oxusu. Lirik şeirin janr xüsusiyyətləri, ahəngdarlığı, musiqililiyi. İfadəli oxuda misradaxili fasilə, rədif, assonans, alliterasiya kimi səs ahəngdarlığı vasitələrinin gözlənilməsi. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 10. | | Əruz vəznində yazılmış lirik şeirlərin oxu xüsusiyyətləri. İfaçılıq təhlilində vəznin və janr xüsusiyyətlərinin nəzərə alınması. Təfilələrlə misra bölgülərinin arasın olan tənasübün gözlənilməsi. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 11. | | Satirik şeirlərin oxusuna hazırlıq və ifadəli oxusu. İntonasiya çalarlarının əlvanlığı, tempin tez-tez əvəzlənməsi, məntiqi vurğulu sözlərin çoxluğu satirik şeirlərin səciyyəvi | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə |

| | | | |
|---|---|---|---|
| | | xüsusiyyətləri kimi. | yetirmək. |
| 12. | | Sərbəst şeirlərin oxusuna hazırlıq və ifadəli oxusu. Misraların pilləli olmasının vəznin səciyyəvi xüsusiyyəti kimi oxuda nəzərə alınması. Ahəngin yaranmasında bunun rolu. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 13. | | Dramatik əsərlərin oxusuna hazırlıq. İfadəli oxuda janrın səciyyəvi xüsusiyyətlərinin (dram, komediya, faciə) nəzərə alınması. Dramatik əsərlərin rollar üzrə oxusu. Dialoqların canlı çatdırılması. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 14. | | Dramatik əsərlərin ifadəli oxusu. Dramatik növün özünəməxsusluğu və bunun oxuda nəzərə alınması. Dramatik əsərdə remarka, dialoq, monoloq, replikaların ifa xüsusiyyətləri. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| 15. | | İnformativ (elmi-kütləvi) mətnlərin oxusu. Mətnlərin növləri, xarakterləri. Elmi mətnlərin mərhələlərinin ardıcıllığı. Elmi mətnləri oxuyarkən nəzərə alınmalı cəhətlər. Publisistik əsərlərin oxusu. | Mühazirə mətni. Mövzu ilə bağlı təqdim olunan tapşırıqları yerinə yetirmək. |
| | Final | | |